# UNİVERSİTET VƏ ELMİ-TƏDQİQAT İDARƏLƏRİ ÜÇÜN ƏQLİ MÜLKİYYƏT SAHƏSİNDƏ SİYASƏT HAQQINDA NÜMUNƏVİ ƏSASNAMƏ

*Versiya 1*

Avropa və Asiyanın müəyyən ölkələri üzrə şöbə tərəfindən hazırlanıb

WIPO
WORLD INTELLECTUAL PROPERTY ORGANIZATION

**BAKI – 2018**

**Universitet və elmi-tədqiqat idarələri üçün əqli mülkiyyət sahəsində siyasət haqqında nümunəvi ƏSASNAMƏ**

# 1. Giriş[1]

İnstitut cəmiyyətin rifahı naminə həyata keçirdiyi elmi tədqiqatların nəticələrinin iqtisadi məqsədlərlə praktiki tətbiqinin və istifadəsinin stimullaşdırmasına olan ehtiyacı tanıyır, əqli mülkiyyət sahəsində münasibətləri tənzimləyən bu Əsasnamə də bu məqsədlə qəbul edilmişdir.

Əsasnamə mülkiyyət hüquqları, Tədqiqatçılar tərəfindən İnstitutda öz xidməti vəzifələrini yerinə yetirdikləri və ya fəaliyyət göstərdikləri zaman yaratdıqları əqli mülkiyyətin qorunması və kommersiya məqsədilə istifadəsi məsələlərinə toxunur.

Sənəddə sənaye və kommersiya təşkilatları ilə İnstitut tərəfindən müəyyən edilmiş əməkdaşlıq qaydaları ifadə edilir və əqli mülkiyyətin kommersiyalaşdırılması nəticəsində əldə edilən iqtisadi mənfəətin bölüşdürülməsi prinsipləri müəyyən edilir.

---

[1] Bu Əsasnamə qüvvədə olan milli qanunvericilik və başqa normativ-hüquqi aktlar nəzərə alınmaqla uyğunlaşdırıla bilər. Bu Əsasnamənin tətbiqindən əvvəl İnstituta hüquqi məsləhət üçün mütəxəssislərə müraciət etmək tövsiyə olunur. ƏM siyasətinin əlavə modeli ÜƏMT-nin İnnovasiya və texnologiya Sektorunun, Patentlər və İnnovasiya Şöbəsinin İnnovasiya və Texnologiya Transferi bölməsinin universitet təşəbbüs proqramı çərçivəsində əldə edilə bilər, http://www.wipo.int/uipc/en/

Bu Əsasnamə aşağıdakı məqsədləri güdür:

i) elmi tədqiqatların və işlərin təşviqi, həvəsləndirilməsi və dəstəklənməsi;
ii) texnologiyalardan istifadə ilə əlaqədar üçüncü tərəflərlə elmi-tədqiqat və hüquqi münasibətlər sahəsində hüquqi müəyyənliyin təmin edilməsi;
iii) İnstitut tərəfindən tətbiq edilən mülkiyyət hüququ rejiminin aşkar edilməsi və müəyyən edilməsi, əqli mülkiyyətin qorunması və kommersiyalaşdırılması prosedurlarının qüvvəyə minməsi;
iv) əqli mülkiyyətin vaxtında və effektiv qorunması və portfelinin idarə olunmasının təmin edilməsi;
v)İnstitutun əqli mülkiyyət obyektlərinin qeydiyyatı, monitorinqi və idarə edilməsi üçün əlverişli şəraitin yaradılması;
vi) İxtiraçılar və İnstitutun, o cümlədən hər hansı digər maraqlı tərəflərin töhfələri nəzərə alınmaqla əqli mülkiyyətin kommersiyalaşdırılmasından yaranan iqtisadi gəlirlərin ədalətli və düzgün paylanmasının təmin edilməsi;
vii) İnstitutun elmi-tədqiqat müəssisəsi və cəmiyyətin üzvü kimi nüfuzunun, həmçinin tədqiqat nəticələrinin geniş miqyasda və cəmiyyətin xeyrinə tətbiqi yolu ilə Tədqiqatçıların nüfuzunun gücləndirilməsi.

Bu sənədin heç bir müddəası milli qanunvericiliyin qüvvədə olan normalarını ləğv etmir.

## 2. Anlayışlar

**"Kommersiyalaşdırma"** - əqli mülkiyyətdən hər hansı formada kommersiya məqsədilə istifadə edilməsi, o cümlədən hüquqların güzəşt edilməsi, lisenziyaların

verilməsi, İnstitut çərçivəsində daxili istifadə və ixtisaslaşmış müəssisə vasitəsilə kommersiyalaşdırma.

**"Müəlliflik hüququ ilə qorunan əsərlər"** - müəllif-hüquq qanunvericiliyinin normalarına uyğun olaraq qorunma meyarlarına cavab verən ədəbi, elmi və bədii əsərlər, o cümlədən elmi nəşrlər, elmi kitablar, məqalələr, mühazirələr, musiqi kompozisiyaları, kinofilm, təqdimatlar və proqram təminatı istisna olmaqla digər materiallar və ya əsərlər.

**"İnstitut resursları"** - İnstitut tərəfindən birbaşa və ya dolayısı təqdim edilən hər hansı formada maliyyə vəsaitləri, maddi-texniki baza və ya resurslar, o cümlədən avadanlıq, sərfiyyat materialları və insan resursları.

**"Əqli Mülkiyyət" (ƏM)** –ixtiralar, texnologiyalar, işlənmələr, təkmilləşdirmələr, materiallar, kimyəvi birləşmələr, üsullar və elmi tədqiqatların digər bütün nəticələri və elmi tədqiqatların aparılması ilə bağlı maddi obyektlər, o cümlədən proqram təminatı və müəlliflik hüququ ilə qorunan digər əsərlər.

**"Əqli mülkiyyət hüququ" (ƏM hüququ)[2]** - əqli mülkiyyətə münasibətdə əmlak və əlaqəli hüquqlar, o cümlədən patentlər, faydalı modellərə hüquqlar, seleksiyaçıların hüquqları, sənaye nümunələrinə, əmtəə nişanlarına, inteqral sxem topologiyalarına hüquqlar, nou-hau, kommersiya sirri və əqli mülkiyyət və ya sənaye mülkiyyətinin bütün digər obyektlərinə olan hüquqlar,

[2] ƏM hüquqları əmlakdır, buna görə də, onların sahibi var və onların dəyəri ola bilər, belə ki, onları almaq, satmaq, onlara lisenziya vermək olar və ya başqa qaydada üçüncü şəxsə ötürmək olar. ƏM hüquqlarının sahibi mütləq ƏM-i yaradan şəxs deyil.

həmçinin qeydiyyata alınmış və ya alınmamış müəllif hüquqları, o cümlədən sifarişlər üzrə həmin hüquqlara olan iddiaların həcminin genişlənməsi və onların bərpası nəzərə alınmaqla, bu hüquqlara sifariş verilməsinə hüquqlar və hər bir halda dünyanın hər yerində eyni və ya oxşar effekti yaradan qorunma hüququ və ya forması.

**"İxtiraçı"** - əqli mülkiyyətin yaradılmasına töhfə vermiş Tədqiqatçı.[3]

**"Tədqiqat aparılması haqqında Müqavilə"** – elmi-tədqiqat xidmətlərinin göstərilməsi haqqında müqavilə, birgə ETTKİ haqqında Saziş, materialın transferi haqqında Saziş, məxfilik haqqında Saziş, məsləhət xidmətlərinin göstərilməsi haqqında Müqavilə və Tədqiqatçı tərəfindən aparılan tədqiqatlara və / və ya İnstitutda yaradılan əqli mülkiyyətə aid hər hansı Müqavilə.

**"Tədqiqatçı"** – İnstitutun resurslarından istifadə edən və İnstitutda hər hansı elmi-tədqiqat tapşırığını yerinə yetirən və ya İnstitutun rəhbərliyi altında hər hansı elmi-tədqiqat layihəsində, o cümlədən xarici donorlar tərəfindən maliyyələşdirilən layihələrdə iştirak edən aşağıdakı şəxsləri bildirir:

i) İnstitut ilə əmək münasibətlərində olan şəxs, həmçinin işçi-tələbələr və texniki heyət

ii) tələbələr, o cümlədən İnstitutun bakalavr tələbələri və aspirantlar,

---

[3] Bu anlayış aşağıdakı sözlər ilə tamamlamaq olar: "... və milli qanunvericiliklə nəzərdə tutulan ixtiraya müəlliflik meyarlarına cavab verir".

iii) hər hansı şəxslər, həmçinin dəvət olunmuş alimlər

**"İxtisaslaşmış şirkət"** – İnstitut tərəfindən yaradılmış əqli mülkiyyətin kommersiya məqsədilə istifadəsi məqsədilə təsis edilmiş şirkət.

**"Dəvət olunmuş tədqiqatçı"** - İnstitut ilə əməkdaşlıq edən, lakin onun işçisi və ya tələbəsi olmayan şəxslər. "Dəvət olunmuş tədqiqatçılara" dəvət olunmuş elmi əməkdaşlar, İnstitutda ictimai əsaslarla çalışan şəxslər və fəxri elmi əməkdaşlar daxildir.

## 3. Əsasnamənin fəaliyyət dairəsi

3.1. Bu Əsasnamə ..... tarixindən sonra yaradılmış bütün əqli mülkiyyətə və onunla bağlı ƏM hüquqlarına tətbiq edilir.

3.2. Bu Əsasnamənin qüvvəsi İnstitut ilə hüquqi əlaqələrə daxil olmuş bütün Tədqiqatçılara tətbiq edilir və bunun əsasında bu Əsasnamə Tədqiqatçı qarşısında hüquqi öhdəliklər qoyur. Bu hüquqi münasibətlər qanunun, kollektiv və ya fərdi müqavilənin[4] normaları əsasında yarana bilər.

3.3. Əsasnamənin qüvvəyə minməsindən əvvəl Tədqiqatçının İnstitut ilə əks məsələ haqqında müqavilə imzaladığı və ya İnstitut əvvəllər üçüncü şəxslə Əsasnamə ilə müəyyən edilmiş hüquq və vəzifələri tənzimləyən müqavilə imzaladığı hallarda bu Əsasnamə tətbiq edilmir.

---

[4] Fərdi müqavilə hüquq və vəzifələr yaradan əmək müqaviləsi və ya hər hansı digər sənəd kimi başa düşülə bilər.

## 4. Tədqiqatçıların statusunun hüquqi aspektləri

4.1. İnstitutun adından işçiləri işəgötürmə səlahiyyətlərini həyata keçirən şəxs İnstitut və Tədqiqatçılar arasında hər cür əmək münasibətlərini müəyyən edən əmək müqaviləsi və ya digər müqavilədə bu Əsasnamənin Tədqiqatçılara şamil edilməsini nəzərdə tutan müddəanın olması üçün tədbirlər görməyə borcludur.

4.2. İnstitut tələbələri hər hansı bir elmi-tədqiqat fəaliyyətinə başlamazdan əvvəl bu Əsasnamənin müddəalarının onlar üçün məcburi xarakter daşıması haqqında saziş imzalamalıdır.

4.3. Doktorantlar üçün elmi-tədqiqat proqramlarında iştirak üçün qeydiyyatdan keçən aspirantlar bu Əsasnamənin müddəalarının qeydiyyatdan sonra onlar üçün məcburi xarakter daşıması haqqında saziş imzalamalıdır.

4.4. İnstitutun adından müqavilə imzalamaq səlahiyyətinə malik olan şəxs İnstitut ilə əmək münasibətlərində olmayan tədqiqatçılar, o cümlədən dəvət olunmuş tədqiqatçılar tərəfindən İnstitutda hər hansı bir elmi-tədqiqat fəaliyyətinə başlamaqdan əvvəl məcburi qaydada bu Əsasnamənin müddəalarının onlar üçün məcburi xarakter daşıması haqqında saziş, həmçinin İnstitut ilə əməkdaşlıq çərçivəsində öz fəaliyyəti zamanı yaradılan ƏM-ə olan mülkiyyət hüquqlarının güzəştə gedilməsi haqqında müqavilə imzalaması üçün tədbirlər görməlidir.

4.5. 4.4 bəndinin müddəalarına baxmayaraq, dəvət olunmuş tədqiqatçılar tərəfindən əvvəllər götürülmüş öhdəliklərə riayət olunması məqsədilə xüsusi sazişlərin imzalanması zərurəti yarana bilər. Barəsində xüsusi sorğu daxil olmuş olan hər hansı belə xüsusi saziş dəyərləndirilməlidir, özü də bu barədə qərar *İnstitut tərəfindən təyin edilmiş şəxs və ya komitə*[5] tərəfindən fərdi qaydada qəbul edilir.

4.6. İnstitut ilə əmək münasibətlərində olan, dəvət olunan elmi işçisi kimi lakin başqa müəssisədə işləyən Tədqiqatçının elmi-tədqiqat fəaliyyəti ilə əlaqədar xüsusi sazişlərin bağlanması zərurəti yarana bilər. Belə hallarda, üçüncü tərəf İnstituta məxsus ƏM hüquqlarına aid hər hansı bir sənədi imzalamağa Tədqiqatçıdan tələb edə bilər. Hər hansı sonrakı mübahisələrin qarşısını almaq məqsədilə Tədqiqatçıya İnstitut tərəfindən təyin olunmuş şəxs və ya komitənin yazılı razılığı olmadan hər hansı bir belə sənədin imzalanması icazə verilmir. İnstitutun malik olduğu ƏM hüquqlarına toxunulmadığı halda belə razılığın verilməsinə imtina edilə bilməz. Belə bir sənədin İnstitutun ƏM hüquqlarına toxunduğu halda İnstitut 5-ci bölmədə müəyyən edilmiş qaydada üçüncü tərəf ilə müqavilə bağlanması üçün danışıqlar aparmağa borcludur.

4.7. Bu Əsasnamədə nəzərdə tutulan hüquq və vəzifələr İnstitutda tədris və ya əmək

[5] Kursiv ilə seçilmiş sözləri Əsasnamənin bütün mətnində təyin edilmiş şəxsin adı və ya təyin edilmiş şöbəsinin adı ilə əvəz olunmalıdır. İnstitutun məsul şəxsi, komitəsi və ya şöbəsi qüvvədə olan prosedur və qaydalara uyğun olaraq təyin edilir.

fəaliyyətinə hər hansı bir qaydada xitam verilməsindən sonra da hüquqi qüvvədə qalır.

## 5. Xarici sponsorlar tərəfindən dəstək, elmi-tədqiqat fəaliyyəti çərçivəsində üçüncü tərəflərlə əməkdaşlıq

5.1. Tədqiqatçı hər hansı bir üçüncü tərəf ilə birlikdə həyata keçirilən müəyyən elmi-tədqiqat fəaliyyətinə başlamazdan əvvəl əməkdaşlıq şərtlərinin yazılı müqavilədə (bundan sonra tədqiqat aparılması haqqında Müqavilə) müəyyən olunmasını təmin etməyə görə məsuliyyət daşıyır.

5.2. Tədqiqatçıların İnstitutun rəsmi nümayəndəsinin icazə olmadan İnstitut adından üçüncü tərəflərlə tədqiqatların aparılması üçün Müqavilə bağlamaq hüququ yoxdur.[6]

5.3. İnstitutun maraqları üçün və onun adından fəaliyyət göstərən şəxslər İnstitutun malik olduğu ƏM hüquqlarına toxuna biləcək müqavilələrin razılaşdırılması və imzalanması zamanı lazımi diqqət yetirməlidirlər.[7]

5.4. Bəzi hallarda İnstitut tərəfindən bu Əsasnamənin müddəalarından kənar xarici

---

[6] Üçüncü tərəflərlə bağlanmış müqavilələr ilə əlaqədar: İnstitut müqavilələrin idarə olunmasının daxili qaydasını tənzimləyən ümumi prinsipləri tətbiq etməlidir.

[7] İnstitutun maraqları lazımi qədər təmsil edilməsi üçün İnstitut müvafiq proseduru nəzərdə tutmalı və ya şöbə təyin etməlidir.

sponsorlar və digər üçüncü tərəflər ilə Tədqiqatların aparılması üçün Müqavilələrin bağlanması onun üçün faydalı ola bilər.

5.5. Əqli mülkiyyətin yaradılmasında İnstitut və üçüncü şəxsin nisbi intellektual və maliyyə töhfəsindən asılı olaraq ayrı-ayrı ƏM hüquqlarının əldə edilməsi və / və ya onun kommersiyalaşdırılmasından əldə olunan mənfəətdə iştirak əməkdaşlıq edən tərəflərin hər biri üçün məqsədəuyğun ola bilər.

5.6. 5.1-ci bəndə nəzərdə tutulmuş müqavilə olmadıqda İnstitut əqli mülkiyyətin yaradılmasında iştirak dərəcəsi paylarına mütənasib qaydada əməkdaşlıq edən tərəflər arasında ƏM hüququnun bölünməsi prinsipini rəhbər tutur.

5.7. Əməkdaşlıq edən tərəflərin 5.6-cı bənddə nəzərdə tutulmuş payların müəyyənləşdirilməsi imkanına malik olmaları və gələcək mübahisələrin qarşısının alınması məqsədilə tərəflərin həyata keçirdikləri elmi-tədqiqat fəaliyyətləri haqqında mütəmadi qaydada daimi sənədləşdirilmiş və imza ilə təsdiqlənmiş qeydlərin aparılması məqsədəuyğundur.

5.8. 5.1-ci bənddə qeyd olunmuş Müqavilə əlavə olaraq aşağıdakıları da daxil edir:[8]

---

[8] İnstituta standart şərtləri və müddəaları olan Birgə elmi-tədqiqat fəaliyyəti və əməkdaşlıq haqqında Müqavilə (BETFƏM) modelinin hazırlanması tövsiyə olunur.

5.8.1. Müqavilə bağlanana qədər İnstitutun malik olduğu ƏM və əlaqəli hüquqlar;[9]

5.8.2. Müqavilə bağlandıqdan sonra onun əsasında elmi-tədqiqat fəaliyyətinin nəticəsində yaradılan ƏM və əlaqəli hüquqlar;[10, 11]

5.8.3. məxfililiyin qorunması üzrə tələblər;

5.8.4. açıqlanma şərtləri;

5.8.5. digər əsas müddəalar.

5.9. Tədqiqatların aparılması haqqında Müqavilədə hüquqların qorunması məqsədilə açıqlanmanın gecikdirilməsinin təmin olunmasını nəzərdə tutan məxfilik rejimini tənzimləyən hər hansı müddəa müvafiq tərəfin məlumatın açıqlanması niyyəti barədə məlumatlandırıldığı tarixdən hesablamaqla adətən ... aydan çox qüvvədə olmamalıdır.

5.10. İnstitutun ƏM hüquqlarına toxunan müqavilələrin və digər hüquqi sənədlərin layihəsinin tam mətninin surəti imzalanmadan əvvəl məcburi qaydada rəy və təsdiq üçün İnstitut tərəfindən təyin olunan şəxs və ya şöbəyə təqdim edilir.

---

[9] Tədqiqatların keçirilməsi haqqında müqavilələrdə adətən "Başlanğıc ƏM" adlanır.

[10] Tədqiqatların keçirilməsi haqqında müqavilələrdə adətən "əldə edilmiş ƏM" adlanır.

[11] ƏM alınması olan hüquq ilə əlaqədar aşağıdakı aspektləri təfsilatlı qeyd etmək olar: qorunmanın tələb edilməsi məqsədilə hansı Tərəf ərizə verməlidir; ərizənin verilməsi və onun qüvvədə saxlanılması üçün hər hansı haqlarının ödənilməsi üçün xərclərin bölüşdürülən payları; kommersiya istifadəsinin şərtləri, o cümlədən gəlir bölgüsü.

## 6. Əqli mülkiyyətə sahiblik[12]

6.1. İnstitutun işçiləri[13]

6.1.1. İnstitutun işçisi tərəfindən öz xidməti vəzifələrinin icrası zamanı və əmək fəaliyyəti çərçivəsində ixtira edilmiş, hazırlanmış və ya yaradılmış bütün Əqli mülkiyyət hüquqlarının sahibi bir qayda olaraq avtomatik surətdə İnstitut olur.

6.1.2. İnstitutun işçisi öz əmək vəzifələrinin adi icrasından kənarda, lakin İnstitutun Resurslarından[14] əhəmiyyətli dərəcədə istifadə etməklə Əqli mülkiyyət yaratdığı halda, o, İnstitutun Resurslarından istifadə haqqı kimi belə əqli mülkiyyətə olan ƏM hüquqlarının İnstituta transfer olunmasına razılıq vermiş hesab olunur.

6.1.3. 6.1.1-ci bənddə müəyyən edilmiş, üçüncü tərəf ilə sponsorluq müqaviləsi və ya hər hansı digər müqavilə

---

[12] Müxtəlif milli qanunlar mülkiyyət hüquqlarına münasibətdə fərqlənə bilər. Bu Siyasətin əsasnaməsinin milli qanunvericiliyə uyğunlaşdırılması zəruridir. Bəzi ölkələrdə İxtiraçılar, dövlət və ya digər hökumət təşkilatları Əqli Mülkiyyət Hüquqları almaq hüququna malikdir.

[13] Bir sıra ölkələrdə xidməti ixtira milli qanunvericilikdə nəzərdə tutulur. Müəyyən hallarda xidməti ixtiranın tətbiqi heç bir əlavə razılaşmanın imzalanmasını tələb etmədən mülkiyyət verilməsi üçün əsas ola bilər. Belə hallarda Tədqiqatçılar bu Siyasətin qaydaları ilə məhdudlaşırlar.

[14] Ümumiyyətlə, kitabxana ləvazimatlarının, geniş ictimaiyyətə açıq olan cihazların və ofis işçilərinin şəxsi avadanlıqlarının nadir istifadəsi əhəmiyyətli istifadə sayıla bilməz.

əsasında elmi-tədqiqat fəaliyyətinin gedişində ya bu cür müqavilələrin icrası zamanı yaradılmış Əqli Mülkiyyət əvvəldən İnstituta məxsusdur, bununla birlikdə mülkiyyət hüququ müvafiq müqavilələrin şərtlərinə uyğun olaraq müəyyən edilir (5-ci bölməyə uyğun olaraq).

6.1.4. 6.1-ci bölmənin müddəaları İnstitutun tələbə-işçilərinə şamil edilir.

6.2. Digər təşkilatlarda tədqiqat fəaliyyəti ilə məşğul olan işçilər

6.2.1. Digər institutun dəvət olunmuş elmi əməkdaşı qismində işləyən İnstitutun işçisi tərəfindən yaradılmış əqli mülkiyyətə münasibətdə hüquqlar İnstitut və digər institut (4.6-cı béndə uyğun olaraq) arasında müqavilə ilə tənzimlənir. İnstitutun malik olduğu ƏM hüquqlarına toxunmadığı halda dəvət olunmuş elmi əməkdaş qismində işlədiyi zaman yaradılmış ƏM Müqavilədə başqa hal nəzərdə tutulmazsa, digər təşkilata məxsusdur.

6.3. İşçi olmayan şəxslər

6.3.1. Dəvət olunan tədqiqatçılar İnstitut ilə əməkdaşlıq çərçivəsində öz fəaliyyətləri zamanı yaratdıqları hər hansı bir əqli mülkiyyəti İnstituta ötürməyə borcludurlar. Bu Əsasnamənin məqsədləri üçün bu şəxslərə İnstitut əməkdaşları üçün

müəyyən edilmiş rejim tətbiq edilir.

6.4. Tələbələr

6.4.1. İnstitut ilə əmək münasibətlərində olmayan tələbələr adi tədris fəaliyyətləri zamanı yaratdıqları bütün intellektual mülkiyyətin və digər ƏM hüquqlarının sahibləridir. Lakin aşağıdakı istisnalar tətbiq edilir.

6.4.1.1. Üçüncü tərəf müəyyən müqaviləyə əsasən tələbəyə təhsil haqqı həcmində maliyyə dəstəyi təklif edirsə və müqavilənin şərtlərinə əsasən üçüncü tərəf tələbənin təhsil zamanı yaratdığı əqli mülkiyyətə hüquq əldə edirsə, tələbə əvvəldən Əqli mülkiyyətin İnstituta məxsus olduğunu öncədən şərtləndirməlidir, əqli mülkiyyətə sahiblik hüququ isə sonradan üçüncü tərəf ilə bağlanmış müqavilə şərtlərinə uyğun olaraq müəyyən edilir.

6.4.1.2. Üçüncü şəxs ilə bağlanmış maliyyə yardımı haqqında müqavilə və ya digər müqavilə əsasında tələbələr tərəfindən elmi-tədqiqat fəaliyyəti zamanı yaradılan əqli mülkiyyət əvvəldən

İnstituta məxsusdur, əqli mülkiyyətə sahiblik hüququ isə sonradan üçüncü şəxs ilə bağlanan müqavilənin şərtlərinə uyğun olaraq müəyyən edilir.

6.4.1.3. Tələbə elmi-tədqiqat fəaliyyəti ilə əlaqədar İnstitutun resurslarından əhəmiyyətli istifadə etməklə Əqli Mülkiyyət yaradırsa, bu, İnstitutun resurslardan istifadəyə görə ödəniş qismində belə Əqli mülkiyyətə sahiblik hüququnun İnstituta verilməsinə razılıq kimi hesab olunur.

6.4.1.4. İnstitut aspirantlar (doktorantlar) tərəfindən aparılan elmi-tədqiqat fəaliyyəti çərçivəsində yaradılan bütün əqli mülkiyyətə sahiblik hüququnun olmasını bildirməyə borcludur.

6.4.2. Tələbələrə ƏM hüquqlarını İnstituta güzəşt etmək imkanı verilir, bundan sonra bu Əsasnamə ilə nəzərdə tutulduğu qaydada hər bir işçi-ixtiraçının hüquqlarının həcminə bərabər olaraq onların hüquqları rəsmiləşdirilir. Belə hallarda, tələbələr

bu Əsasnamə ilə müəyyən edilmiş prosedurlara əməl etməlidir.

6.5. Müəlliflik hüququ ilə qorunan əsərlərə bütün hüquqlar İnstitutunun resurslarından istifadə olunmasından asılı olmayaraq belə əsərlərin yaradıcılarına məxsusdur. İnstitutun xüsusi tapşırığı əsasında və ya üçüncü tərəf ilə maliyyə dəstəyi əsasında tədqiqatların aparılması haqqında müqavilənin və ya digər müqavilənin həyata keçirilməsi zamanı yaradılan müəlliflik hüququ ilə qorunan əsərlər istisna təşkil edir, bu zaman müvafiq müqavilələrin müddəaları nəzərə alınır.

6.6. İnstitut öz sahiblik hüququnu bildirdiyi hər hansı əqli mülkiyyətin kommersiya məqsədilə istifadəsini həyata keçirə bilmirsə və ya həyata keçirməmək haqqında qərar qəbul edirsə, bu barədə İxtiraçıya (İxtiraçılara) məlumat verilməlidir. Belə bildiriş onun nəticəsində qorunmanın tələb ediləsi imkanın itirilə bilməsinə gətirib çıxara biləcək hər hansı hərəkət və ya qəsdən hərəkətsizliyin baş verməsindən ən azı bir ay əvvəl göndərilir. Belə hallarda İxtiraçı (İxtiraçılar) əlaqəli ƏM hüquqlarını əldə etmək imkanına malikdir; lakin İnstitut əqli mülkiyyətin hər hansı sonrakı kommersiya məqsədilə istifadəsindən İnstitutun ƏM-in qorunması və kommersiyalaşdırılması ilə bağlı çəkilən təsdiq olunmuş xərclərin həcminə bərabər məbləğdə gəlir payı tələb etmək hüququna malikdir. İnstitut həmçinin qonorar verməmək şərtilə

kommersiya məqsədilə istifadə və sublisenziya verilməsi hüququ olmadan elmi-tədqiqatların aparılması məqsədləri üçün ona müddətsiz qeyri-müstəsna lisenziyanın verilməsini tələb etmək hüququna malikdir. İnstitut həmçinin əqli mülkiyyətin kommersiyalaşdırılması nəticəsində İxtiraçı (İxtiraçılar) tərəfindən əldə edilən hər hansı xalis gəlirdən ..... faiz[15] ödənilməsini tələb etmək hüququna malikdir. İnstitutun əsassız olaraq ƏM hüquqlarının İxtiraçının (İxtiraçıların) xeyrinə güzəştə getmək və ya bunu gecikdirmək hüququ yoxdur, lakin öz maraqlarına uyğun gəldiyi halda onun kommersiya istifadəsinin vaxtının uzadılması hüququnu özündə saxlayır.

6.7. İnstitut tərəfindən hüquqların İxtiraçı (İxtiraçılar) və ya hər hansı digər üçüncü şəxsə verilməsi üçün ilk növbədə İnstitut tərəfindən təyin edilmiş şəxsə və ya şöbəyə müraciət olunmalıdır.

## 7. Maraqların toqquşması və məxfilik[16]

7.1. İnstitutun işçisi kimi tədqiqatçının müvəqqəti və intellektual resurslarının əsas hissəsi İnstitutun təhsil, elmi-tədqiqat və akademik proqramlarının həyata keçirilməsinə sərf edilməlidir.

---

[15] Bu dəyər adətən 15-20% arasındadır.

[16] Maraqların münaqişəsinin tənzimlənməsi üçün ayrıca siyasətin müəyyən edilməsi tövsiyə olunur.

7.2. Hər bir tədqiqatçı üçüncü tərəflə bağlanmış müqavilələrlə İnstitut qarşısındakı öhdəlikləri arasında və ya bu Əsasnamə ilə ziddiyyətlərin yol verilməməsinə cavabdehdir. Bu müddəa xüsusilə üçüncü tərəflərlə bağlanmış məsləhət və digər elmi-tədqiqat xidmətlərinin göstərilməsi haqqında müqavilələrə aiddir. Hər bir tədqiqatçı özünün İnstitut qarşısındakı vəzifələrinin xarakteri və həcmi barədə məlumatı belə müqavilələr bağlana biləcək şəxslərin diqqətinə çatdırmalıdır və bu cür şəxslərə bu Əsasnamənin surətinin təqdim olunması qayğısına qalmalıdır.

7.3. Tədqiqatçılar İnstitutun kommersiya sirlərinin məxfiliyinə riayət etməlidirlər. Bu Əsasnamənin məqsədləri üçün İnstitutun həyata keçirdiyi tədqiqatlara aid olan, səlahiyyətsiz şəxslər tərəfindən açıqlanması, alınması və ya kommersiya istifadəsinin İnstitutun qanuni maliyyə, iqtisadi və ya bazar maraqlarına ziyan vura və ya təhlükə altına qoya biləcək hər bir fakt, informasiya, qərar və ya məlumat kommersiya sirri hesab edilir. Tədqiqatçılar üçüncü tərəflərlə informasiya mübadiləsi çərçivəsində məxfiliyin qorunması haqqında müddəalara riayət olunmasına tam lazımi diqqət yetirməlidirlər.[17]

7.4. Tədqiqatçı tərəfindən maraqların toqquşması və ya məxfiliyə riayət edilməsi ilə bağlı hər

[17] Tədqiqatçılar üçün Məxfi Məlumatın Açıqlanması üzrə Razılaşma forması olmalıdır.

hansı şübhə yarandıqda İnstitut tərəfindən təyin edilmiş şəxs və ya şöbə ilə məsləhətləşmək tövsiyə olunur.

7.5. Tədqiqatçılar hər bir tərəf üçün məqbul olacaq qərarın hazırlanması üçün bütün potensial və faktiki maraqların toqquşması barədə dərhal İnstitut tərəfindən təyin edilmiş şəxsə və ya şöbəyə məlumat verməlidir.

## 8. Əqli mülkiyyətin aşkara çıxarılması, açıqlanması və kommersiyalaşdırılması

8.1. İnstitut öz Tədqiqatçılarını kommersiyalaşdırılma obyektləri kimi dəyərə malik ola biləcək və gələcəkdə cəmiyyətin xeyrinə istifadə olunaraq İnstitutun nüfuzunu gücləndirəcək tədqiqat nəticələrini aşkara çıxarmağa çağırır.

8.2. İnstitut tərəfindən təyin edilmiş şəxs və ya şöbə İnstitutun əqli mülkiyyətinin qorunması və kommersiyalaşdırılmasına cavabdehdir. Lakin müvafiq prosedurların hər bir mərhələsində İxtiraçı (İxtiraçılar) ilə məsləhətləşmək lazımdır.

8.3. Tədqiqatçılar nəşr edilməzdən əvvəl elmi nəticələri əks etdirən işlərin layihələrini yazılı formada şöbənin səlahiyyətli Rəhbərinin diqqətinə çatdırmalı və belə işlərin tərkibində hüquqi qorunma tələb edilə və ya hər hansı bir şəkildə kommersiya istifadəsinin obyekti ola

biləcək hər hansı nəticələrin olmaması barədə yazılı bildiriş hazırlamalıdırlar.

8.4. Tədqiqatçılar, o cümlədən işçilər, tələbələr və dəvət olunan tədqiqatçılar 6-cı maddənin təsiri altına düşən bütün əqli mülkiyyət haqqında məlumatları İnstitut tərəfindən təyin edilmiş şəxsə və ya şöbəyə açıqlamağa borcludurlar.

8.5. 8.3-cü bənddə nəzərdə tutulmuş açıqlama üzrə öhdəlik üçüncü tərəflə maliyyə yardımı əsasında tədqiqat aparılması haqqında müqavilənin və ya hər hansı digər müqavilənin icrası zamanı yaradılmış əsərlər istisna olmaqla, müəlliflik hüququ ilə qorunan əsərlərə şamil edilmir.

8.6. Əqli mülkiyyətin qorunması və uğurlu kommersiyalaşdırılması işlərin operativ və səmərəli aparılmasından asılı ola biləcəyinə görə İxtiraçılar kommersiya istifadəsi üçün potensial obyekt ola biləcək bütün əqli mülkiyyət haqqında xəbərdar olduqdan dərhal sonra bu barədə məlumatları açıqlamalıdırlar. Məlumatlar yazılı formada Məlumatın açıqlanması formasını[18] doldurmaqla açıqlanmalıdır, belə forma İnstitut tərəfindən təyin edilmiş şəxsdən və ya şöbədən əldə edilə bilər.

[18] İnstitut Əqli Mülkiyyətin açıqlanması Formasını onun aşkarlanmasının asanlaşdırılması üçün təqdim etməlidir. Formanın nümunəsi bu siyasətin tərkib hissədir (Əlavəyə baxın).

8.7. İxtiraçılar elmi-tədqiqat fəaliyyəti və bunun əqli mülkiyyət kontekstində əhəmiyyətli olan nəticələri haqqında bütün məlumatları açıqlamalı, həmçinin özü, o cümlədən əqli mülkiyyətin yaradılmasındakı şəxsi töhfəsi və onun yaradılması halları haqqında məlumat verməyə borcludur. Əqli mülkiyyətin ətraflı təsviri elə bir formada tərtib olunmalıdır ki, müvafiq sahədəki mütəxəssis onun yaradılması ilə bağlı ixtiraçılıq fəaliyyətini, yenilik dərəcəsini və sənayedə tətbiq olunmasının yararlığını aydın təsəvvür edə bilsin.

8.8. Məlumatın tam açıqlanmadığı halda əlavə informasiyanın verilməsi barədə sorğu ilə İxtiraçıya (İxtiraçılara) müvafiq forma təkrar göndərilə bilər. Məlumatın açıqlanma tarixi bütün ixtiraçılar tərəfindən imzalanmış və məlumatın tam həcmdə açıqlanmış sənədin İnstitut tərəfindən təyin edilmiş şəxs və ya şöbə tərəfindən alındığı gün hesab edilir.

8.9. İxtiraçının əqli mülkiyyətin 6-cı maddənin təsiri altına düşməsində və ya potensial olaraq kommersiya istifadəsinin obyekti ola bilməsinə münasibətdə şübhələri varsa, İxtiraçı əqli mülkiyyət haqqında məlumatın açıqlanmasından əvvəl İnstitut tərəfindən təyin edilmiş şəxs və ya şöbəyə müvafiq məlumatları baxılmaq üçün təqdim etməlidir.

8.10. Vaxtından əvvəl açıqlanma əqli mülkiyyətin qorunması və kommersiyalaşdırılmasını

təhlükə altına sala bilər. Hər hansı potensial gəlir itkisinin qarşısını almaq üçün Tədqiqatçılar iş prosesinin erkən mərhələlərində əqli mülkiyyətin aşkara çıxarılmasına yönəlmiş ağlabatan səylər göstərməli və hər hansı bir açıqlamanın nəticələrini nəzərə almalıdırlar.

8.11. Bütün müvafiq məlumat açıqlandıqdan sonra İnstitut tərəfindən təyin edilmiş şəxs və ya şöbə öz reyestrində əqli mülkiyyət haqqında qeyd aparmalıdır.

8.12. İnstitut tərəfindən təyin edilmiş şəxs və ya şöbə hər hansı müqavilələri birgə ƏM hüquqlarının və ya bu Qaydalarla müəyyən edilmiş öhdəlikləri ləğv edən digər öhdəliklərin nəzərdə tutulub-tutulmamasını müəyyən etməyə borcludur. Tədqiqatların aparılması haqqında müvafiq müqavilələrin müddəaları müəyyən ƏM hüquqlarının tam və ya qismən güzəştə gedilməsini nəzərdə tuta bilər. Güzəştə getmə hallarında qorunma və kommersiyalaşdırılmanın tələb edilməsi qaydası İnstitut və digər tərəflər arasında bağlanmış ayrıca müqavilə ilə tənzimlənir. Bütün qalan hallarda bu Əsasnamədə nəzərdə tutulmuş qaydalar tətbiq edilir.

8.13. İnstitut tərəfindən təyin edilmiş şəxs və ya şöbə bütün açıqlanmış məlumatlar barəsində şöbənin səlahiyyətli rəhbərini məlumatlandırmağa borcludur. Bildirişdə əqli

mülkiyyətin qısa təsviri və İxtiraçının (İxtiraçıların) adı göstərilir.

8.14. Açıqlanma tarixi başlandıqdan sonra İnstitut tərəfindən təyin edilmiş şəxs və ya şöbə dərhal əqli mülkiyyətin qiymətləndirilməsinə başlamalıdır. İlk növbədə əqli mülkiyyətin qorunmasını və kommersiyalaşdırılmasını tələb etmək məqsədilə hər hansı mümkün əhəmiyyətli maneələri müəyyən etmək üçün ilkin qiymətləndirmə aparılır. İlkin qiymətləndirilmə əsasında əqli mülkiyyətin qorunmasının və kommersiya istifadəsinin tələb edilməsinin məqsədəuyğunluğu məsələsi üzrə tövsiyələr hazırlanır və İnstitutun adından yekun qərar qəbul edən şəxsə və ya komitəyə göndərilir. Belə tövsiyə açıqlanma tarixindən ... gün ərzində göndərilir. Yekun qərar açıqlanma tarixindən ... gün ərzində qəbul edilir.

8.15. İxtiraçıya (İxtiraçılara) qəbul olunmuş qərar haqqında qərarın qəbul olunması tarixindən ... gün ərzində yazılı məlumat verilir. İnstitut məlumatları açıqlanmış əqli mülkiyyətin kommersiyalaşdırılmasından imtina haqqında qərar qəbul edildiyi halda, 6.6-cı bəndin müddəaları tətbiq edilir.

8.16. İnstitut tərəfindən təyin edilmiş şəxs və ya şöbə əqli mülkiyyətin qorunmasının mümkün üsullarına və onun mənbə rolunu oynadığı kommersiya imkanlarına xüsusi diqqət yetirməklə əqli mülkiyyətin tam qiymətləndirməsini aparmalıdır.

8.17. İxtiraçı (İxtiraçılar) İnstitut tərəfindən təyin edilmiş şəxs və ya şöbə, patent müvəkkili və ya İnstitut tərəfindən cəlb olunmuş hər hansı digər mütəxəssislər ilə sıx əməkdaşlıq etməlidir. İxtiraçı (İxtiraçılar) əqli mülkiyyətin qorunması və kommersiya istifadəsi zamanı informasiya təqdim etməklə, görüşlərdə iştirak etməklə və gələcək inkişafı ilə bağlı məsələlər üzrə və məsləhətlər verməklə səmərəli köməklik göstərməlidir.

8.18. İnstitut tərəfindən təyin edilmiş şəxs və ya şöbə zərurət yaratdığı halda ağlabatan müddət ərzində hüquqi qorunmanı tələb etmək proseduruna başlamalı və belə prosedurun həyata keçirildiyi zaman lazımi diqqət yetirməlidir. Əqli mülkiyyət hüquqlarının öz adına bağlanması üçün ayrıca sifarişə münasibətdə prioritet hüququn alınmasına qədər tədqiqat nəticələrinin açıqlanması müvafiq ƏM hüquqlarının lazımi qorunmasını yüksək risk altına salır. Bu səbəbdən İxtiraçı (İxtiraçılar) belə sifarişlərin təqdim olunmasından əvvəl tədqiqat nəticələrinin hər hansı açıqlanmasının qarşısının alınmasını xahiş edir. İnstitut nəşrlərin lazımsız ləngimələrinin qarşısının alınması üçün səy göstərir.

8.19. İxtiraçı (İxtiraçılar) və İnstitut tərəfindən təyin edilmiş şəxs və ya şöbə İnstitut tərəfindən qərar qəbul olunduğu tarixdən ... ay müddətində qiymətləndirilmə proseduru çərçivəsində birgə səylərlə

kommersiyalaşdırılma strategiyasını hazırlamalıdır. Strategiyada kommersiyalaşdırma çərçivəsində hər bir tərəfin vəzifələri müəyyən olunur və konkret tədbirlərin həyata keçirilməsi üçün tarixlər təyin olunur.

8.20. İnstitut tərəfindən təyin edilmiş şəxs və ya şöbə kommersiyalaşdırılma planının həyata keçirilməsinə cavabdehdir və qərar qəbul edilməsi üçün İnstitut tərəfindən təyin edilmiş şəxs və ya komitəyə müqavilə və ya biznes-planların layihələri kimi konkret təklifləri istiqamətləndirməlidir.

8.21. Hüquqların verilməsi müqaviləsi / lisenziya müqaviləsinin şərtləri və ya ixtisaslaşmış müəssisənin yaradılması ilə bağlı qərarlar İnstitut tərəfindən təyin edilmiş şəxs və ya komitə tərəfindən fərdi qaydada qəbul edilir.

8.22. İnstitut kommersialisaziya məqsədilə əqli mülkiyyətə münasibətdə məxfi nou-hau rejiminin müəyyən edilməsinin daha çox üstün olduğu halda onu qeydiyyata almaqla sənaye mülkiyyətinin qorunması üçün sifariş verməmək barəsində qərar qəbul edə və ya nəşr olunmamış sifarişi geri götürə bilər. Belə hallarda, İxtiraçıya (ixtiraçılara) əqli mülkiyyət barədə məlumatların hər hansı açıqlanmasından imtina etməsi barədə yazılı xahiş göndərilir. Lakin İnstitut bu imkanın seçimi zamanı tədqiqatçıların nəşr azadlığını

nəzərə almalı və ictimai maraqları rəhbər tutmalıdır.

8.23. İnstitut sifariş üzrə işin aparılmasını dayandırmaq, geri çağırmaq və ya təqdim olunmuş, yaxud qeydiyyata alınmış hüququn qüvvədə saxlanılmaması haqqında qərar qəbul edirsə, 6.6-cı maddənin müddəaları tətbiq edilir. Belə qərarlar İnstitut tərəfindən təyin edilmiş şəxs və ya komitə tərəfindən qəbul olunur.

8.24. Tədqiqatçılar həmçinin bu Əsasnamənin müddəalarına uyğun olaraq 6-cı bəndin təsiri altına düşməyən əqli mülkiyyət haqqında məlumatları İnstituta açıqlaya bilərlər. Belə hallarda İnstitut bütün əhəmiyyətli məlumatların tam həcmdə açıqlanmasından ... gün müddətində əqli mülkiyyətin kommersiya istifadəsinin zəruriliyi haqqında qərar qəbul etməlidir. İnstitut əqli mülkiyyətin qorunmasının tələb olunması və kommersiyalaşdırılması haqqında qərar qəbul edərsə, bu Əsasnamədə nəzərdə tutulmuş qaydalar tətbiq olunur.

8.25. Əqli mülkiyyətin qorunması və kommersiyalaşdırılması ilə bağlı çəkilmiş xərcləri İnstitut öz öhdəsinə götürür.

8.26. Əqli mülkiyyətin tam təsviri qiymətləndirilmə və kommersiyalaşdırılma üçün ayrılmış müddət ərzində məxfilik müqaviləsi əsasında üçüncü şəxslərə açıqlanır.

## 9. İnstituta məxsus əqli mülkiyyət obyektlərinə olan hüquqların qeydiyyatı və qüvvədə saxlanması

9.1 İnstitut tərəfindən təyin edilmiş şəxs və ya şöbə İnstituta məxsus əqli mülkiyyətin müvafiq forma və kifayət qədər ətraflı dərəcədə qeydiyyatını aparmalıdır. O, qorunan əqli mülkiyyətə olan hüquqlarının saxlanması ilə bağlı ödəniş öhdəliklərinin icra müddətlərinə nəzarət etməli və ağlabatan müddətdə İnstitut tərəfindən təyin edilmiş şəxsə və ya şöbəyə məlumat verməlidir.

9.2 İnstitut tərəfindən təyin edilmiş şəxs və ya şöbə hər bir əqli mülkiyyət obyekti üzrə mühasibat uçotunu aparmalıdır. O, uçot sənədlərində əqli mülkiyyət haqqında qeydlərin aparılmasını, müəyyən edilmiş qaydada çəkilmiş hər hansı xərclərin ödənişini və kommersiya istifadəsindən olan gəlirin bölüşdürülməsini təmin etməlidir.

## 10. Gəlirlərin bölüşdürülməsi, Tədqiqatların motivasiyası

10.1 İnstitut əqli mülkiyyətin kommersializasiyasından əldə edilən gəlirlərin bölüşdürülməsi vasitəsilə İxtiraçını (İxtiraçıları) həvəsləndirir.

10.2 "Xalis gəlir" termini əqli mülkiyyətin qorunması və kommersiyalaşdırılması ilə bağlı İnstitut tərəfindən çəkilmiş bütün xərclər çıxıldıqdan sonra, əqli mülkiyyətin kommersializasiyası nəticəsində İnstitut tərəfindən alınan bütün lisenziya ödəmələri, royalti və digər pul gəlirləri deməkdir.

10.3 Xalis gəlir aşağıdakı nisbətdə bölüşdürülür:[19]

| ***Xalis gəlir*** | *İxtiraçılar* | *Şöbə* | *İnstitut* |
|---|---|---|---|
| | … % | … % | … % |
| | … % | … % | … % |

10.4 Bir neçə ixtiraçının olduğu halda gəlirin ixtiraçının payına düşən hissəsi ixtiraçılar arasında onların verdikləri töhfələrinə mütənasib əqli mülkiyyət haqqında məlumatların açıqlanması haqqında imzalanmış formada müəyyən edilən miqdarlara uyğun olaraq bölüşdürülür.

10.5 Bəzi hallarda, o cümlədən İnstitut lisenziya verilməsi və ya hüquqların güzəştə gedilməsi qaydasında əqli mülkiyyətin ötürülməsi üçün ixtisaslaşmış şirkət olmayan hüquqi şəxsin səhmlərini İnstitutun aldığı hallarda gəlirin mənbəyi səhmlərin

[19] Gəlirlərin bölgüsü prinsipi bütün iştirakçı tərəflərin, həmçinin ümumi iqtisadi gəlirlər nəzərə alınmaqla hər bir İnstitut üzrə ayrı-ayrılıqda müəyyən edilməlidir.

satışı və ya səhmlər üzrə dividendlərin verilməsi olduqda İnstitut gəlirin bölüşdürülməsinin xüsusi şərtlərinin razılaşdırılması hüququnu özündə saxlayır.

10.6 İxtisaslaşmış şirkət yaradıldığı halda, ona verilən iştirak payı İnstitut və İxtiraçı (İxtiraçılar) arasındakı ayrıca müqavilə ilə tənzimlənir. Belə müqavilənin şərtləri əqli mülkiyyətin yaradılmasına töhfədən başqa hər hansı sonrakı inkişaf və kommersiya istifadəsi prosesində İxtiraçıların töhfəsi, həmçinin yeni şirkətdə iştirakçı payı alan İxtiraçı (İxtiraçılar), İnstitut və ya hər hansı üçüncü şəxslər tərəfindən təqdim edilən hər hansı bir maliyyələşmə də nəzərə alınmaqla fərdi qaydada razılaşdırılır. ixtisaslaşmış şirkətin yaradılması üçün şərtlər ilə bağlı qərar İnstitut adından İnstitut tərəfindən təyin edilmiş şəxs və ya şöbə tərəfindən qəbul edilir.

10.7 Əmtəə nişanlarının və digər fərdiləşdirilmə vasitələrinin kommersiya istifadəsi halında İxtiraçı (İxtiraçılar) belə istifadədə onun töhfəsinin payı nəzərə alınmaqla ayrı müqavilə ilə müəyyən edilmiş qaydada mənfəətdə iştirak hüququna malikdir. Bu məsələlər üzrə qərarlar İnstitut tərəfindən təyin edilmiş şəxs və ya komitə tərəfindən fərdi qaydada qəbul edilir.

## 11. Bu Əsasnamənin normalarının pozulması

11.1 Bu Əsasnamənin normalarının pozulması halında qanunun tətbiq edilən normalarına müvafiq olan İnstitutdakı mövcud prosedur qaydaları tətbiq edilir.

## 12. Mübahisələr və Şikayət

12.1 Bütün mübahisələr ilk növbədə İnstitut tərəfindən təyin edilmiş şəxs və ya orqan tərəfindən baxılır. Qərar şikayət verilən müddətdən ... gün ərzində qəbul edilir. Yuxarıda göstərilənlə yanaşı bu Əsasnamənin normalarının tətbiqi ilə bağlı yaranan hər hansı bir hüquqi mübahisə halında qanunun müvafiq normaları tətbiq edilir.

## 13. Əsasnamənin qüvvəyə minməsi

13.1 Bu Əsasnamə .... qüvvəyə minir.

13.2 İnstitut və İxtiraçının (İxtiraçıların) əvvəllər bağladığı bütün müqavilələr belə müqavilələrin imzalandığı an üçün bu Əsasnamənin qüvvədə olan redaksiyasının normaları ilə tənzimlənir.

[Son]

Əqli mülkiyyət sahəsində siyasət haqqında bu model Əsasnamənin əsasını bir neçə universitetlərin qüvvədə olan əsasnamələrinin normaları təşkil edir. Bu Model

Əsasnamənin hazırlanması zamanı ƏM sahəsində münasibətləri tənzimləyən aşağıdakı Əsasnamələrə və sənədlərə əhəmiyyətli diqqət ayrılmışdır.

1. Bornmut Universiteti
2. London Kral Kolleci
3. Oksford Bruks Universiteti
4. Kaliforniya Universiteti
5. Kembric Universiteti
6. Debresen Universiteti
7. Qlazqo Universiteti
8. Oksford Universiteti
9. Plimut Universiteti
10. Universitet və elmi-tədqiqat təşkilatları üçün əqli mülkiyyət sahəsində münasibətləri tənzimləyən əsasnamələrin hazırlanması üzrə təlimat (ÜƏMT, Cenevrə)

| | |
|---|---|
| Şöbə:<br>Əlaqələndirici şəxs:<br>Telefon:<br>E-mail: | Qeydiyyat nömrəsi:<br><br>Təqdim etmə tarixi: |

## I. TEXNOLOGİYANIN TƏSVİRİ

1. **Texnologiyanın adı** *(məxfi olmayan informasiya)*

2. **Texnologiyanın qısa təsviri** *(qeyri-mütəxəssis olan investorlar və şəxslər üçün anlaşılan bir dildə 3-4 bənd həcmində məxfi olmayan informasiya)*

3. **Texnologiyanın qısa *təsviri*** *(10-15 bənd həcmində məxfi informasiya)*

4. **Yenilik və texnologiyanın üstünlükləri** *(Texnikanın müasir səviyyəsi ilə müqayisə vasitəsilə texnologiyanın yenilik səviyyəsini müəyyən etməyə imkan verən nəşrlərə istinad etməyiniz xahiş edirik və müvafiq texnologiyanın inkişafının ümumi gedişi ilə tanış olun)*

5. **Tətbiq sahələri. Zəhmət olmasa, bütün tətbiq sahələrini qeyd edin.** *(Kim texnologiyanın kommersiya istifadəsində maraqlı ola bilər? Zəhmət olmasa, məhz bu texnologiyanın köməyi ilə hazırlanması mümkün ola bilən unikal məhsullar və xidmətlər haqqında məlumat verin)*

6. **inkişaf mərhələsi və konsepsiyanın yoxlanması** *(Zəhmət olmasa, texnologiyanın praktiki tətbiq imkanları haqqında məlumat verin)*

7. **Açar sözlər**

## II. NƏŞRLƏR VƏ MÜQAYiSƏ EDiLƏN TEXNOLOGİYALAR

1. **Texnologiya haqqında tam və ya qismən məlumatlar hər hansı bir qısa icmal, sənəd, prezentasiya, dissertasiya, çıxış, məqalə və ya hər hansı digər nəşrdə açıqlanıb?** *Əgər belədirsə, zəhmət olmasa, müvafiq nəşrlərin siyahısını qeyd edin və əldə olan bütün surətləri bu formaya əlavə edin.*

2. **Bu texnologiya ilə bağlı tədqiqatların nəticələrini nə zaman açıqlamağı planlaşdırırsız?**

3. **Zəhmət olmasa bu texnologiyanın tətbiqi sahəsində ən əhəmiyyətli elmi əsərlərin siyahısını göstərin.**

4. **Zəhmət olmasa, bu texnologiyanın tətbiqi sahəsində baxılmaqda olan bütün məlum patent ərizələrinin və verilmiş patentlərin siyahısını göstərin.**

5. **Bu texnologiyanın tətbiqi sahəsində tədqiqat aparan hər hansı elmi-tədqiqat qrupları və ya kommersiya müəssisələrini tanıyırsız?**

6. **Zəhmət olmasa, bu texnologiyanın tətbiqi sahəsində müqayisə edilən texnologiyaların inkişafı və / və ya kommersiya istifadəsi ilə məşğul olan hər hansı tanınmış müəssisələrin siyahısını göstərin.**

## III. İXTİRAÇILAR

1. **Texnologiya ixtiraçıları kimlərdir?** *(Zəhmət olmasa, texnologiyanın yaradılmasına töhfə verən bütün ixtiraçıların siyahısını göstərin)*

| **Ad** | **İxtiraçı və institut arasında hüquqi əlaqə forması** | **Töhfə faizlə (%)** | **Şöbə / Təşkilat** | **Əlaqə (Ünvan və telefon nömrəsi)** |
|---|---|---|---|---|
| 1. | | % | | |
| 2. | | % | | |
| 3. | | % | | |
| 4. | | % | | |
| ... | | % | | |

2. **Zəhmət olmasa, ixtiraçılardan əlavə texnologiyanın yaradılmasında iştirak edən bütün araşdırmaçıların siyahısını göstərin.**

| **Araşdırmaçının adı** | **Araşdırmaçı və institut arasında hüquqi əlaqə forması** | **Şöbə / Təşkilat** | **Əlaqə (Ünvan və telefon nömrəsi)** |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |

## IV. ELMİ-ARAŞDIRMA MALİYYƏLƏŞDİRMƏSİ VƏ ƏMƏKDAŞLIQ

1. **Zəhmət olmasa, texnologiyanın araşdırılması və yaradılmasında istifadə olunan maliyyə mənbələrini göstərin.**

| Maliyyə forması | Əlaqədar müqavilənin müddəti | Maliyyə yardımı göstərən təşkilatın adı |
|---|---|---|
| | | |
| | | |
| | | |

2. **Zəhmət olmasa, araşdırma işində əməkdaşlıq edən bütün üçüncü tərəflərin siyahısını göstərin.**
3. **Zəhmət olmasa, bütün müqavilələrin surətini, yaxud bu araşdırma fəaliyyəti ilə bağlı digər hüquqi sənədləri bu formaya əlavə edin.**
4. **Texnologiyanın yaradılması zamanı hər hansı material (reaktiv, mobil xətt, antikor, plazmid, kimyəvi birləşmə, kompüter proqramı və s.) 3-cü tərəfə transfer olunubmu? Əgər olunubsa, zəhmət olmasa bu haqda məlumat verin.**
5. **Texnologiyanı tam və ya qismən hər hansı üçüncü tərəfə açıqlamışsınızmı? Əgər açıqlamışsınızsa, zəhmət olmasa, bu haqda məlumat verin və bütün müvafiq gizli müqavilələrin surətlərini bu formaya əlavə edin.**

**Bu formada əks olunan bütün məlumatlar İnstitut tərəfindən məxfi saxlanılacaq.**

**Mən, aşağıda imza edən ixtiraçı İnstitutun ƏM siyasətinin müddəaları ilə tanış oldum və burada təsbit olunmuş qaydalara əməl edəcəyimi bəyan edirəm.**

| | | |
|---|---|---|
| ..................................... | ................... | .................................... |
| *[İxtiraçının adı 1]* | *Tarix* | *İmza* |
| ..................................... | ................... | .................................... |
| *[İxtiraçının adı 2]* | *Tarix* | *İmza* |
| ..................................... | ................... | .................................... |
| *[İxtiraçının adı 3]* | *Tarix* | *İmza* |
| ..................................... | ................... | .................................... |
| *[İxtiraçının adı 4]* | *Tarix* | *İmza* |